# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli 24 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında pedaqoji fəaliyyətlə məşğul olmağa yol verilməyən xəstəliklərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında**

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 fevral tarixli 57 nömrəli Qərarı ilə təsdiq edilmiş "Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 20 yanvar tarixli 23 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli 24 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında pedaqoji fəaliyyətlə məşğul olmağa yol verilməyən xəstəliklərin Siyahısı"nın 33-cü və 34-cü hissələrinin "Xəstəliklərin adı" sütununa "müəssisələri" sözündən sonra ", uşaq musiqi və incəsənət məktəbləri" sözləri əlavə edilsin.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, "1" fevral 2022-ci il
№ 24